# «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 29 iyun 2005-ci il***

***№ 871.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2005-ci il, № 6, maddə 526)***